# BƏXTİYAR DÜNYASI

«TƏHSİL» NƏŞRİYYATI
BAKI – 2005

Sabir RÜSTƏMXANLI

## AZADLIQ ŞAİRİ

Hələ sovet ideologiyasının at oynatdığı, insanları manqurtlaşdırmağa çalışdığı ən kəskin dövrlərdə Bəxtiyar Vahabzadə sözünün sehri Azərbaycan türkünü heç bir vaxt tək buraxmadı. Onun şeirləri sayca az olsa da, insanların özü tərəfindən əl yazısı şəklində çoxaldılır və bir-birinə ötürülürdü. Bütün məclislərin, yığıncaqların mövzusu bu şeirlər olurdu.

«Gülüstan» poeması isə qaranlıq səmada çaxan şimşək effekti verdi. Sanki hər şey birdən-birə aydınlaşdı, kimin kim, nəyin nə olduğu faş edildi.

Xalq Bəxtiyar Vahabzadənin şeirlərinin əlindən tutub özünə qayıdırdı. Bunun məntiqi nəticəsi idi ki, bu nəhəng şair həm də Milli Azadlıq Hərəkatının əsas ideoloqlarından biri sayılır.

Bəxtiyar Vahabzadə rəsmən də müstəqil dövlətimizin bütün yüksək titullarına layiq görülüb. Bundan əlavə, xalq onu Azadlıq Şairi və Azadlıq Nəğməkarı kimi də öz qəlbində yaşadır və daim də yaşadacaqdır.

80 illiyini qeyd edən Azadlıq Şairimizi mən də öz növbəmdə təbrik edir, ona böyük uğurlar, can sağlığı və daim xalqın sevimlisi olaraq qalmağı arzulayıram.